Dr. Telman İbrahimov
Azerbaijan National Academy of Sciences

1468-ci il Şamaxı Antologiyasında Şirvan miniatür məktəbinin üslubu haqqında

1468-ci ildə Şirvanın qədim mədəniyyət mərkəzlərindən biri olan Şamaxı nəqqaşxanasında Şərqin məşhur ədiblərinin əsərlərindən seçilmiş Toplu (Məcmuə) olan və "Şirvan Antologiyası" kimi tanınan əlyazma kitabın sifarişçisi Şirvanşah Fərrux Yasar olmuşdur. Antologiyaya mətnlərinin köçürülməsi və bədii tərtibata ümumi rəhbərlik - saray xəttatı Şərəf əl-Din Hüseyn Sultaniyə tapşırılmışdır. Hicri tarixinin 873 il (1468) rəbiülaxır(oktyabr) ayında Antologiya tamamlanmış və Fərrux Yasara təntənəli şəkildə təqdim olunmuşdur.

Kitabı bəzəyən 8 ədəd rəngli miniatürün müəllifi məlum deyil. Antologiya Londonun Britaniya Kitabxanasında saxlanır və 14-15 ə.ə. yaşayıb-yaratmış 12 görkəmli Şərq şairlərinin Divanlarından seçmələrin (entexab) toplusudur(1.180-181).

Kitabda aşağıda adları çəkilən şairlərin Divanlarından seçmələr mövcuddur:

1. XIVə. şairi Kamal Xocəndi Divanından seçmə.
2. XIVə. şairi Hafiz Şirazinin Divanından seçmə.
3. XVə. Şairi Mövlana katib Turşizinin Divanından seçmə. Şirvan hökmdarı Şeyx İbrahimin saray şairi olmuşdur.
4. XVə. şairi Mövlana Əşrəf (Dərviş Əşrəf)Divanından seçmə. Baysunqur dövründə saray şairi olmuşdur
5. XVə. şairi Əmir Şahi Səbzəvar Divanından seçmə.
6. XIVə. şairi Nasir Buxarai.
7. XVə. şairi Mövlana Bisəti Səmərqəndi Divanından seçmə.
8. XVə. şairi Xəyali Buxarayi Divanından seçmə.
9. XVə. şairi Əbürrəhman Cami Divanından seçmə.
10. XVə. şairi Abd Allah Tusi Xorasani Divanından seçmə.
11. XVə. şairi Mövlana Təlili Səmərqəndi Divanından seçmə.

Əyazma kitabın ölçüləri 229 x 127 mm. olaraq, çindən gətirilmiş çəhrayi rəngli kağız üzərində iki sütündа nəstəliq xətti ilə qara rəngli mürəkkəblə yazılmış mətnlər yerləşdirilib. Kitabdakı ayrı-ayrı müəlliflərin Divanlarından olan seçmə mətnləri bəzəyən 8 ədəd illüstrasiyanın rəssam-müəllifi barədə əlyazmanın "ünvan"ında məlumat yoxdur. Qeyd etmək lazımdır ki, miniatürlərin bədii sənətkarlıq səviyyəsi, üslubu, dəsti-xətt və rəng xüsusiyyətləri kitabda olan bütün miniatürlərin eyni müəllifə məxsus və eyni zamanada yaradılmışlar.

Antologiya və onun miniatürləri barədə yazmış görkəmli miniatür tədqiqatçısı B.W. Robinsonun fikrincə əlyazmanın miniatürləri "Türkmən" üslubunda yaradılmışlar (2.35). Bununla belə, əlyazmanın Şirvanın paytaxtı - Şamaxı şəhərində yaradılmasını Robinson özü də etiraf edir.

Robinsonun bu fikiri ilə əlaqədar nəzərə almaq lazımdır ki, 1468-ci ildən 1501-ci ilə kimi Şirvanın ərazisi və onun paytaxtı Şamaxı şəhəri siyasi baxımdan Ağqoyunlu tayfa konfederasiyasının tərkibində yarı-müstəqil dövlət olmuşdur. Konfederasiyanın başında türkmən mənşəli Bayandur tayfası olduğundan Qərb tarixşünaslığında bu siyasi birləşməni bütövlüklə Türkmən dövləti adlandıraraq, onunla ittifaqda olan digər xalqları və onların mədəniyyətini də, avtomatik olaraq – Türkmən dövləti və mədəniyyətinə aid edirlər.

Robinsonun Şirvanda, şirvan rəssamı tərəfindən yaratdığı miniatürləri "Türkmən üslublu" adlandırmaq miniatürlərinin üslubuna görə deyil, o dövrün siyasi coğrafiyayasına istinaddan irəli gəlir. Belə adlandırmanın digər bir səbəbi də Şirvan Antologiyası miniatürlərinin o dövrdə mövcud olmuş Marağa, Herat, Təbriz və Şiraz miniatürlərindən ciddi fərqlənməsi idi. Adları çəkilən miniatr mərkəzlərdən heç birinin üslubuna uyğun olmayan Şirvan Antologiyasının miniatürlərini Robinson yerli, Şirvan məktəbinə aid deyil, Ağqoyunlu konfederasiyasının aparıcı etnosun adı ilə adlandırır. Və nəhayət, "Türkmən üslubu" əgər mövcud olubsa, o harada, hansı şəhərdə, miniatür mərkəzində formalaşıb? Bu sualın cavabı yoxdur, çünki belə bir məlumat ümumiyyətlə mövcud deyil.

Robinson nəzərdən qaçırıb ki, müasir azərbaycanlıların etnogenezində yaxından iştirak etmiş oğuz-türkmən etnosu - tarixən digər yerli oğuz tayfaları ilə qaynayıb-qarışaraq müasir Azərbaycan xalqına çevrilmişlər. Başqa sözlə desək, müasir Azərbaycan coğrafiyasında mövcud olmuş qədim türkmən tayfasının nümayəndələri özlərini bu gün Azərbaycanlı adlandırırlar.

Şirvan Antologiyasının miniatürlərinin üslubu barədə Böyük Britaniyalı görkəmli şərqşünas və miniatür tədqiqatçısı Basil Gray məlumat verərək, onların "Teymuri üslubuna" uyğunluğunu ehtimal edir (5.99).

Antologiya miniatürlərinin üslub xüsusiyyətləri barədə danışan digər miniatür tədqiqatçısı Cəmilə Həsənzadə bu miniatürlərin Təbriz miniatür məktəbinin üslubu ilə oxşarlığını vurğulayır (6.186).

Əslində, "Antologiya" miniatürlərinin üslubu nə Türkmən, nə də Təbriz miniatür məktəbinə uğyğun deyil. Miniatürlər yerli, Şirvan mədəni mühitinin və rəssamların yaratdığı bədii üsluba malikdirlər. Bu üslub XV əsrdən - XIXə.-dək inkişaf etmiş və rəssam Nəcəfqulu Şamaxalının 1887-ci ildə "Yusif və Züleyxa" poemasına çəkdiyi miniatür-illüstrasiyalarda nəzərə çarpır. Miniatürlərdə "Şirvan üslubu"nun davamını digər 19 əsr Şamaxılı rəssam - Şəfiqulu Şirvaninin "Kəlilə və Dimnə" əsərinə çəkdiyi illüstrasiyalarda, və yenədə 19 əsrdə yaşayıb-yaratmış rəssam və xəttat Rüknəddin Şirvaninin "Əcaib əl Məxluqat və Qaraib əl Mövcudat" əsərinə çəkdiyi miniatür-illüstrasiyalarında da görmək mümkündür.

Bütün bunları nəzərə alaraq, 1468-ci il Şirvan Antologiyası miniatürlərinin üslubunu yerli Şirvan miniatür məktəbində yaranmış "bədii üslub" adlandırmaq daha düzgün olardı.

Nəticə

1. Londonun "British Library" kitabxanasında saxlanılan və 1468-ci ildə Şirvanın paytaxtı Şamaxıda Şirvanşah Fərrux Yasar üçün hazırlanmış XIV-XV əsrlərin məşhur Şərq

şairlərinin Divanlarından seçmələr Məcmuəsi - “Şirvan Antologiyası” adı ilə miniatür sənəti tədqiqatçılarının əsərlərində yer almışdır.

2. Əlyazma şəklində olan “Şirvan Antologiyası”nın “ünvanında” kitabın o vaxtki Şirvan hökmdarı Şirvanşah Fərrux Yasar üçün yazıldığı qeyd olunub. Kitabın xəttatı Fərrux Yasarın saray xəttatı, şirvanlı Şərəf əl-Din Hüseyn Sultani olmuşdur.

3. Şirvan Antologiyasının miniatürlərində təsvir olunuş personajlar, onların geyimləri, aksessuarlar, memarlıq eksteryerləri və interyerləri yerli, Şirvanın(Şamaxı) maddi mədəniyyət mühitini əks edirlər.

4. 1468-ci “Şirvan Antologiyasının” yaradılmasından sonrakı yuzilliklərdə Şirvanda Şamaxılı rəssamlar tərəfindən yaradılaraq kitablarda yerləşdirilmiş miniatürlərin təhlili “Antologiya”da nəzərə çarpan miniatür üslubunun XIX ə. ikinci yarısına kimi yerli rəssamların miniatür yaradıcılığında davam etməsini izləmək mümkündür. Bunu nəzərə alaraq, “Antologiya” miniatürlərinin üslubunu Şirvan Miniatür məktəbində yaranmış - “Şirvan miniatür üslubu” adlandırmaq düzgün və məntiqidir.

Ədəbiyyat:

1. Бретаницкий Л.С., Веймарн Б.В. Искусство Азербайджана IV-XVIII веков. Издательство «Искусство». Москва 1976


2. Robinson B.W. Fifteenth-century Persian Painting. Problems and Issues. New York University Press. New York and London. 1991

3. Robinson B.W. The Turkman school to 1503. In: The Art of Book in Central Asia. Paris-London 1979.

4. Stchoukine I. Les peintures Turcomanes et Safavides d’une Khamse de Nizami acheeve a Tabriz en 886/1481. Arts Asiatigues, vol.XIV, 1966

5. Basil Gray. Persian Painting. Macmillan London LTD, 1977 Skira, p. 99

6. Jamila Hasanzadeh, Agasalim Afandiyev. For century of Glory: Azerbaijan Miniature Painting of XIII-XVI centuries. “Aspoliqraf”, Baku 2011




Binding of the "Shirvan Anthology". 1468. Shemakha, Azerbaijan



Double page of the Anthology



Double miniature from the book's frontispiece. Palace scene of Shirvan Shah Farrukh Yasar




Shirvan Shah Sheikh Ibrahim plays chess.
Miniature from the Divan (works) of Movlana Katib Turshizi.




Shirvan Shah Sheikh Ibrahim plays chess.
Miniature from the Divan (works) of Movlana Katib Turshizi (Detail)




Shirvan Shah Sheikh Ibrahim plays chess.
Miniature from the Divan (works) of Movlana Katib Turshizi (Detail)




Shirvan Shah Sheikh Ibrahim plays chess.
Miniature from the Divan (works) of Movlana Katib Turshizi (Detail)




The Vicissitudes of Fate. A Reception at the Palace of the Shirvan Shah.
Miniature from the Divan (works) by Hafiz Shirazi




Flooding of the Tigris River in Baghdad.
Miniature from the Divan (works) of Nasir of Bukhara




Flooding of the Tigris River in Baghdad.
Miniature from the Divan (works) of Nasir of Bukhara (detail)




The Despair of a Lost Poet.
Miniature from "Divan" (works) by Movlana Bisati Samarkandi



Amir Vali's admonitions to his son, who aspires to become a poet.
Miniature from the Divan (works) of Abd ar-Rahman Jami



A young man's conversation with a wise hermit.
Miniature from the Divan (works) of the 15th-century Khorasan poet Abd Allah Tusi



Binding of the "Shirvan Anthology". 1468. Shemakha, Azerbaijan